**BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ**

***№1 Təbiət elmləri seriyası 2013***

**UOT**
**911.3**

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA ŞƏHƏR VƏ KƏND ƏHALİSİNİN TƏBİİ ARTIM PROSESLƏRİNİN ƏRAZİ FƏRQLƏRİ

**H.Ə.TAHİROVA**
***Bakı Dövlət Universiteti***
***hicran.tahirova@mail.ru***

*Məqalədə Naxçıvan Muxtar Respublikasının şəhər və kənd əhalisinin təbii artım prosesləri, bu proseslərə təsir edən amillər, inzibati rayonların şəhər və kənd əhalisinin təbii artım prosesi arasında mövcud olan fərqlər təhlil olunmuş və illər üzrə müqayisəli təhlili aparılmışdır. Təhlildən alınan nəticələr əsasında bu prosesin inkişafına təsir edən amillər müəyyənləşdirilmiş və bu sahədə olan problemlərin aradan qaldırılması istiqamətləri göstərilmişdir.*

***Açar sözlər:*** *şəhər və kənd yerləri, doğum əmsalı, ölüm əmsalı, təbii artım əmsalı*

Naxçıvan Muxtar Respublikasının demoqrafik inkişafında kənd yerləri özünəməxsus yer tutur. Çünki kənd yerlərində əhalinin doğum səviyyəsi şəhər yerlərindən xeyli yüksək olduğundan burada əhalinin təbii artım səviyyəsi və sürəti bütünlükdə əhalinin və əmək ehtiyatlarının sayının dəyişilməsinə əhəmiyyətli təsir göstərir. Əhalinin təbii artım prosesinə təsir edən amillərin mürəkkəb mexanizmini açmaq üçün kənd yerlərində əhalinin təbii artım göstəricilərinin şəhər yerləri ilə müqayisəli şəkildə tədqiq edilməsi zəruri hesab olunur. Öyrənilən dövrdə NMR-də şəhər yerlərinə nisbətən kənd yerlərində əhalinin doğum səviyyəsi xeyli yüksək olmuş və bütünlükdə əhali arasında olduğu kimi, burada da onun səviyyəsi daim azalmağa doğru meyl etmişdir. Bu prosesə şəhər və kənd yerlərində yaşayan əhalinin yaş - cins quruluşundakı fərqlər, urbanizasiya prosesinin güclənməsi və rayon mərkəzlərinin sosial-iqtisadi inkişaf səviyyəsi, gənc oğlan və qızların həmin mərkəzlərə axıb getməsi və burada ailə qurması, oğlanların nisbətən daha çox şəhər yerlərinə getməsi nəticəsində kənd yerlərində gənc qızların ailə qurmasının çətinləşməsi, habelə öyrənilən ərazilərdə kənd və şəhər yerlərində həyat tərzinin nisbətən bir-birinə yaxınlaşması və s. izah edilir.

1960-2009-cu illəri əhatə edən 49 il ərzində Naxçıvan Muxtar Respublikasında əhalinin hər min nəfərinə düşən ümumi doğum əmsalı 63,7%, şəhər yerlərində bu göstərici 64,8%, kənd yerlərində isə 65,3% azalmışdır.

Bütün bunlar istər bütünlükdə Azərbaycan Respublikasında, istərsə də onun ayrı-ayrı iqtisadi rayonlarında şəhər və kənd yerlərində əhalinin doğum səviyyəsinin daha çox bir-birinə yaxınlaşmasına və onlar arasında mövcud olan fərqlərin tədricən azalmasına doğru aparır. 2009-cu ildə muxtar respublikada doğulanların 25,2%-i, ölənlərin 28,8%-i və təbii artımın 23,9%-i şəhər yerlərinin, göstəricilərə uyğun olaraq 74,8%-i, 71,2% və 76,1%-i kənd yerlərinin payına düşür. NMR-də şəhər əhalisinin xüsusi çəkisi 29,1%, kənd əhalisi isə 70,9% təşkil edir.

Qeyd etmək lazımdır ki, Naxçıvan Muxtar Respublikasının bəzi inzibatı rayonlarının şəhər və kəndlərində doğum səviyyəsi üzrə mövcud olan fərqə təsir edən amillərdən biri də kiçik şəhərlərin və qəsəbələrin ümumi inkişaf səviyyəsinin iri şəhərlərlə müqayisədə kənd yerlərindən o qədər də fərqlənməməsidir. Bu da öz növbəsində həmin inzibati rayonların şəhər yerlərində doğum səviyyəsinin kənd yerlərindən az fərqlənməsinə səbəb olmuşdur. Ancaq istər bütünlükdə muxtar respublikada, istərsə də onun inzibati rayonlarında bütün dövrlərdə doğum səviyyəsi kənd yerlərində şəhər yerlərinə nisbətən yüksək olaraq qalmışdır.

Tədqiq edilən dövrdə (1999-2009-cu illər) əhalinin doğum səviyyəsinin azalması muxtar respublikanın şəhər və kənd yerlərində də baş vermiş, ancaq kənd yerlərində şəhər yerlərinə nisbətən azalma sürəti daha yüksək olmuşdur. Belə ki, 1989-cu ildə kənd yerlərində əhalinin hər min nəfərinə düşən doğum səviyyəsi şəhər yerlərindəkinə nisbətən 1,3 dəfə yüksək olmuşdursa, 1999-cu ildə bu göstərici 1,2 dəfə, 2009-cu ildə 1,2 dəfə təşkil etmişdir. Şəhər və kənd yerlərində doğum səviyyəsi üzrə mövcud olan bu fərqlər muxtar respublikanın, demək olar ki, bütün inzibati rayonlarında qeydə alınmış və bu proses ardıcıl xarakter daşımışdır.

Yuxarıda qeyd olunanlardan aydın olur ki, şəhər və kənd yerlərində mövcud olan doğum əmsalı arasındakı tərəddüdün miqyası get-gedə azalır ki, bu da həmin ərazilərin sosial-iqtisadi, əhalinin yaş-cins quruluşu, məşğulluq səviyyəsi və quruluşu, maddi və mədəni həyat səviyyəsi və s. mövcud olan fərqlərin azalması ilə əlaqədardır.

Naxçıvan Muxtar Respublikasında məskunlaşmanın vəziyyəti Azərbaycan Respublikasının orta göstəricisinə nisbətən sabit olması ilə fərqlənir. Sabitliyin göstəricisi həm şəhər (11,7 nəfər), həm də kənd (15,5 nəfər) yerlərində əhalinin daha yüksək artımının nəticəsidir. Burada şəhər və kənd əhalisinin üstün artması Azərbaycanın ümumi orta vəziyyətindən yaxşı olmasını göstərsə də vəziyyət əsl həqiqətdə belə deyil. Naxçıvan Muxtar Respublikasının anklav vəziyyətdə olması burada əhalinin yerdəyişmə qabiliyyətini məhdudlaşdırdığı üçün yerlərdə (şəhər və kənd) artım nisbətən üstün getmişdir. Bu həm də Naxçıvan Muxtar Respublikasında doğumun və təbii artımın yüksəkliyi ilə əlaqədardır.

Naxçıvan Muxtar Respublikasının inzibati rayonlarında əhalinin təbii artımı və demoqrafik göstəriciləri məskunlaşmanın vəziyyətindən asılı olaraq

kəskin sürətdə fərqlənir. Belə ki, torpaqların kənd əhalisinə verilməsi yerlərdə məskunlaşma üçün özünəməxsus imkanlar yaratmışdır ki, bu da öz növbəsində kənd əhalisinin təbii hərəkətinə öz təsirini göstərmişdir. Bu cəhətdən ən yaxşı imkanı olan Babək (17,1 nəfər) və Kəngərli (16,5 nəfər) rayonlarında kənd əhalisinin artımı NMR-in orta göstəricisindən müvafiq olaraq 9,4% və 6,1% yüksəkdir.

Şəhər yerlərində əhalinin doğum, ölüm və təbii artım göstəricilərinin kənd yerlərinə nisbətən aşağı olmasına urbanizasiya əhəmiyyətli təsir göstərir [5]. Şəhər yerlərində əhalinin hər min nəfərinə düşən doğum, ölüm və təbii artım əmsalının 1999-2009-cu illər üzrə müqayisəli təhlili aşağıdakı cədvəldə verilmişdir.

Cədvəl 1

**Şəhər yerlərində əhalinin hər min nəfərinə düşən doğum, ölüm və təbii artim əmsali**

| İllər | 1999 | | | 2009 | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Rayonlar | Doğum | Ölüm | Təbii artım | Doğum | 1999-cu ilə nisbətən % - lə | Ölüm | 1999-cu ilə nisbətən %- lə | Təbii artım | 1999-cu ilə nisbətən %-lə |
| NMR | 14,2 | 5,3 | 8,9 | 16,9 | 15,0% | 5,2 | 1,8% | 11,7 | 23,9% |
| Naxçıvan ş. | 12,2 | 5,0 | 7,2 | 16,3 | 25,2% | 5,0 | 0,0% | 11,3 | 36,2% |
| Sədərək | - | - | - | 22,5 | - | 2,6 | - | 19,9 | - |
| Şərur | 25,0 | 3,1 | 21,9 | 12,2 | 51,2% | 6,3 | 50,8% | 5,9 | 73,0% |
| Babək | 25,3 | 8,7 | 16,6 | 27,5 | 8,0% | 4,5 | 48,2% | 23,0 | 27,8% |
| Şahbuz | 16,0 | 5,6 | 10,4 | 17,6 | 9,0% | 6,0 | 6,7% | 11,6 | 10,3% |
| Culfa | 18,9 | 5,3 | 13,6 | 17,8 | 5,8% | 4,1 | 22,6% | 13,7 | 0,7% |
| Ordubad | 10,8 | 7,3 | 3,5 | 14,9 | 27,5% | 6,4 | 12,3% | 8,5 | 58,8% |
| Kəngərli | - | - | - | 23,4 | - | 7,5 | - | 15,9 | - |

1999-cu ildə şəhər yerlərində doğum (25,3 nəfər) və ölüm (8,7 nəfər) əmsalının ən yüksək həddi Babək rayonunda, təbii artım (21,9 nəfər) əmsalının ən yüksək həddi isə Şərur şəhərində müşahidə olunmuşdur [3]. 2009 - cu ildə isə şəhər yerlərində bu göstəricilər müvafiq olaraq Babək (27,5 nəfər), Kəngərli (7,5 nəfər) və Sədərək rayonlarında (19,9 nəfər) qeydə alınmışdır.

1999-cu ilinən müqayisədə 2009-cu ildə Naxçıvan Muxtar Respublikasının şəhər yerlərində doğum əmsalı 15,0% artmış, ölüm əmsalı 1,9% azalmış, təbii artım əmsalı isə 23,9% artmışdır [4]. Statistik məlumatlardan da göründüyü kimi muxtar respublikanın və onun ayrı-ayrı inzibati rayonlarının şəhər yerlərində hər min nəfərə düşən doğum əmsalı respublika göstəricilərindən həmişə yüksək olmuşdur.

Ölüm səviyyəsi, xüsusilə də uşaq ölümünün vəziyyəti bu və ya digər regionun, o cümlədən şəhər və kənd yerlərinin sosial-iqtisadi inkişafını və onun əhalisinin həyat səviyyəsini səciyyələndirən ən mühüm göstəricilərdən biri hesab edilir. 2009-cu ilin statistik məlumatlarına əsasən NMR-də hər min nəfər

diri doğulan uşaqdan bir yaşınadək ölənlərin sayı 2,1 nəfər, o cümlədən şəhər yerlərində 3,6 nəfər, kənd yerlərində 1,6 nəfər olmuşdur.

Naxçıvan Muxtar Respublikasının şəhər və kənd yerlərində əhalinin ölüm göstəricisi arasında fərqlər mövcuddur. Son yarım əsr ərzində muxtar respublikada əhalinin hər min nəfərinə düşən ölüm səviyyəsi şəhər yerlərində 42,6%, kənd yerlərində 37,0% azalaraq müvafiq surətdə 10,1-dən 5,8-ə və 9,2-dən 5,8 - düşmüşdür.

Statistik rəqəmlərdən göründüyü kimi Naxçıvan Muxtar Respublikasında şəhər əhalisinin ümumi təbii artım əmsalı 2000-ci ildən (8,9) 2006-cı ilə (7,0) kimi azalmış, 2007-ci ildən sonra isə (17,3) yenidən artmışdır. Bu proses MR-də, xüsusilə şəhər yerlərində son illərdə sosial-iqtisadi gərginliyin aradan qaldırılması və əhalinin həyat səviyyəsinin yüksəlməsi ilə bağlı olmuşdur. Bununla belə təbii artım əmsalına görə inzibati rayonların şəhər yerləri arasında kəskin fərqlər müşahidə olunur. Belə ki, Naxçıvan şəhərində, Şərur, Ordubad və Babək rayonlarında da 2000-2006-cı illər arasında təbii artım əmsalı azaldığı halda, Sədərək (26,1 nəfər) və Şahbuz (16,6 nəfər) rayonlarında 2003-cü ildə son on il ərzində ən yüksək təbii artım əmsalı qeydə alınmışdır.

Naxçıvan Muxtar Respublikasının kənd əhalisi ümumi respublikaya və əksər iqtisadi rayonlara nisbətən daha aktiv demoqrafik xarakterə malikdir. Burada dağlıq və düzənlik kənd yerlərində əhalinin demoqrafik göstəriciləri arasında fərqlər mövcuddur. Belə ki, doğum əmsalı düzənlik (Babək – 22,4, Sədərək – 19,3, Şərur – 20,0 və Kəngərli – 22,4 uşaq) rayonların kənd yerlərində, dağlıq rayonların (Şahbuz – 17,9, Culfa – 22,1, Ordubad – 20,6) kənd yerlərindən 27,9% artıqdır. Ən az uşağın Şahbuz (343 nəfər və ya 4,3%) və Sədərək (294 nəfər və ya 2,9%) rayonlarında doğulması burada kənd yerlərində sosial-iqtisadi infrastrukturun lazımi səviyyədə olmamasını göstərir.

Muxtar Respublikanın kənd yerlərində əhalinin hər min nəfərinə düşən doğum, ölüm və təbii artım əmsalının 1999-2009-cu illər üzrə müqayisəli təhlilini aşağıdakı cədvəldən aydın görmək olar.

Cədvəl 2

**Kənd yerlərində əhalinin hər min nəfərinə düşən doğum, ölüm və təbii artım əmsalı**

| İllər | 1999 | | | 2009 | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Rayonlar | Doğum | Ölüm | Təbii artım | Doğum | 1999-cu ilə nisbətən %- lə | Ölüm | 1999-cu ilə nisbətən %- lə | Təbii artım | 1999-cu ilə nisbə-tən %- lə |
| NMR | 16,8 | 5,4 | 11,4 | 20,8 | 19,2% | 5,3 | 1,8% | 15,5 | 26,4% |
| Naxçıvan ş. | - | - | - | 16,2 | - | 3,9 | - | 12,3 | - |
| Sədərək | 22,2 | 5,7 | 16,5 | 19,3 | 13,1% | 3,9 | 31,6% | 15,4 | 6,7% |
| Şərur | 15,5 | 5,1 | 10,4 | 20,0 | 22,5% | 5,4 | 5,6% | 14,6 | 28,8% |
| Babək | 16,7 | 5,6 | 11,1 | 22,4 | 25,4% | 5,3 | 5,3% | 17,1 | 35,1% |
| Şahbuz | 16,5 | 6,2 | 10,3 | 17,9 | 7,8% | 6,7 | 7,4% | 11,2 | 8,0% |
| Culfa | 19,5 | 5,3 | 14,2 | 22.8 | 14,4% | 4,9 | 7,5% | 17,9 | 20,6% |
| Ordubad | 17,5 | 5,7 | 18,0 | 20,6 | 15,0% | 5,3 | 7,0% | 15,3 | 15,0% |
| Kəngərli | - | - | - | 22,4 | - | 5,9 | - | 16,5 | - |

Cədvəldən göründüyü kimi Naxçıvan Muxtar Respublikasının ümumi kənd əhalisi arasında doğum əmsalı 1999-cu ildəki 16,8 nəfərdən 2009-cu ildə 20,8 nəfərə qədər artmışdır, ölüm əmsalı 5,4 nəfərdən 5,3 nəfərə qədər azalmış, təbii artım əmsalı isə 11,4 nəfərdən 15,5 nəfərə qədər artmışdır. Son 10 il ərzində MR-in inzibati rayonlarının kənd yerləri üzrə doğum əmsalında ərazi fərqləri müşahidə olunur. Belə ki, 1999-cu ildə ən yüksək doğum əmsalı (22,2 nəfər) Sədərək rayonunda, təbii artım əmsalı (18,0 nəfər) Ordubad rayonunda, ölüm əmsalı isə (6,2 nəfər) Şahbuz rayonunda qeydə alınmışdır [3]. 2009-cu ildə isə fərqli olaraq doğum (22,8 nəfər) və təbii artım (17,9 nəfər) əmsalının ən yüksək həddi Culfa rayonunda, ölüm əmsalının ən yüksək həddi isə yenə də Şahbuz rayonunda (6,7 nəfər) müşahidə olunmuşdur [4].

NMR-in kənd əhalisi üzrə ölüm əmsalı bütün illərdə 5–6 nəfər arası dəyişmiş və ən yüksək həddə 1995-ci ildə (6,6 nəfər) çatmışdır. Ölüm əmsalının ən aşağı həddi isə 2009-cu ildə müşahidə olunmuşdur.

2009-cu ildə Naxçıvan Muxtar Respublikasında 1 yaşa qədər ölən uşaqların sayı 15 nəfər olmuşdur ki, bunun da 9 nəfəri kənd yerlərinin payına düşmüşdür. Kənd yerlərində 1 yaşa qədər uşaq ölümünün ən çox olduğu inzibati rayon Babək rayonudur (3 nəfər). Digər inzibati rayonların kənd yerlərində isə 1 uşaq olmuşdur.

Naxçıvan Muxtar Respublikasının kənd yerlərində təbii artım əmsalı bütün illərdə MR səviyyəsindən çox olmuşdur. 2009-cu ildə kənd yerlərində təbii artım əmsalı 15,5 nəfər (MR səviyyəsindən 77,0% çox) olduğu halda, bu göstərici MR üzrə 14,3 nəfər olmuşdur.

Naxçıvan Muxtar Respublikasının şəhər və kənd yerlərinin əhalisinin təbii artım proseslərinin təhlilindən göründüyü kimi həm şəhər, həm də kənd yerlərində hər min nəfərə düşən doğum əmsalı respublika göstəricilərindən həmişə yüksək olmuş, kənd əhalisi üzrə ölüm əmsalı bütün illərdə 5-6 nəfər arasında dəyişmişdir və 1 yaşa qədər ölən uşaqların əksəriyyəti kənd yerlərinin payına düşmüş, kənd yerlərində təbii artım əmsalı bütün dövrlərdə yüksək səviyyədə olmuş və bu göstəricinin çoxluğuna görə birinci yeri Culfa rayonu, azlığına görə isə Şahbuz rayonu tutmuş, şəhər yerlərində doğulanların sayının çoxluğuna görə Naxçıvan, Culfa və Ordubad şəhəri, azlığına görə isə Şahbuz şəhəri və Sədərək rayonu fərqlənir, şəhər yerlərində ölüm əmsalının orta göstəricisinin yüksək olduğu rayon Ordubad və Şahbuz rayonlarıdır, ölüm əmsalının orta göstəricisinin ən az olduğu rayonlar isə Sədərək və Kəngərlidir [6].

Naxçıvan Muxtar Respublikasının şəhər və kənd yerlərinin demoqrafik proseslərinin təhlilindən əldə olunan nəticələrdən məlum olur ki, rayonlarda əhalinin demoqrafik göstəriciləri məskunlaşmanın vəziyyətindən asılı olaraq kəskin sürətdə fərqlənir. Kənd təsərrüfatına yararlı torpaq sahələri ilə yaxşı təmin olunmuş kənd yerlərində əhalinin artımı NMR-in orta göstəricisindən 9,4% yüksəkdir. Şəhər yerlərində əhalinin doğum, ölüm və təbii artım göstəricilərinin kənd yerlərinə nisbətən aşağı olması urbanizasiya prosesi ilə əlaqədardır.

Naxçıvan Muxtar Respublikasının və onun ayrı-ayrı inzibati rayonları əhalisinin təkrar istehsal prosesindən də göründüyü kimi, sosial iqtisadi vəziyyətin çətinliyinə baxmayaraq burada əhalinin sayı daim artmaqda davam etmişdir. Son illər muxtar respublikada sosial-iqtisadi şəraitin yaxşılaşdırılması və bu istiqamətdə həyata keçirilən və nəzərdə tutulan mühüm tədbirlər ("Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008 və 2009-2013-cü illər) dövlət proqram"ı) gələcəkdə şəhər və kənd yerlərində əhalinin rifah halının yaxşılaşdırılmasına və sürətli artımına öz müsbət təsirini göstərəcəkdir [1, 2].

Yuxarıda qeyd olunan bütün fikirləri nəzərə alaraq belə nəticəyə gəlirik ki, Naxçıvan Muxtar Respublikasında iqtisadi və sosial strukturların bərpası və inkişafı istiqamətində görülən tədbirlər əhalinin sabit həyat şəraitinə keçməsinə imkan yaratmaqla bərabər, demoqrafik proseslərin aktivləşməsinə də öz təsirini göstərəcəkdir.

**ƏDƏBİYYAT**

1. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı. Dövlət proqramı (2004–2008-ci illər). “Azərbaycan” qəzeti, Bakı, 2004, 13 fevral.
2. Azərbaycan Respublikası Regionlarının 2009–2013-cü illərdə sosial-iqtisadi inkişafı. Dövlət proqramı. Bakı, 2009.
3. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması 1999-cu il. Bakı: Səda, 2001, 480 s.
4. Azərbaycan Dövlət Statistika Komitəsi, Azərbaycanın demoqrafik göstəriciləri. 2010. Bakı: Səda, 2010, 427 s.
5. Əfəndiyev V.Ə. Urbanizasiya və Azərbaycanın şəhər yaşayış məskənləri. Bakı, 2002, 395 s.
6. Tahirova H.Ə. Naxçıvan Muxtar Respublikasında demoqrafik vəziyyətin təhlili // Azərbaycan Coğrafiya Cəmiyyətinin Əsərləri, XIV cild, 2009, s. 248-250.

## ТЕРРИТОРИАЛЬНЫЕ РАЗЛИЧИЯ ПРОЦЕССОВ ЕСТЕСТВЕННОГО ПРИРОСТА ГОРОДСКОГО И СЕЛЬСКОГО НАСЕЛЕНИЯ В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ

**Н.А.ТАИРОВА**

**РЕЗЮМЕ**

В статье проведен сравнительный анализ процессов естественного прироста городского и сельского населения Нахчыванской Автономной Республики, факторов влияющих на эти процессы, существующих различий между процессом естественного прироста городского и сельского населения административных районов. Были определены факторы влияющие на развитие этого процесса на основе итогов полученных от анализов и показаны направления для решения проблем в этой области.

**Ключевые слова:** городская и сельская местность, коэффициент рождаемости, коэффициент смертности, коэффициент естественного прироста

**TERRITORIAL VARIETY OF THE PROCESSES OF NATURAL GROWTH OF POPULATION IN URBAN AND RURAL AREAS OF THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC**

**A.H.TAHIROVA**

**SUMMARY**

The article presents the study of the natural growth of population in urban and rural areas of the Nakhchivan Autonomous Republic, the factors that influence these processes, administrative regions, urban and rural differences that exist between the natural growth of the population and provides a comparative annual analysis. The results of the analysis of the process allowed identifying the factors that influence the development of problems in this area.

**Key words**: urban and rural areas, the birth rate, death rate and natural growth rate

*Redaksiyaya daxil oldu: 17.01.2013-cü il*
*Çapa imzalandı: 06.03.2013-cü il*